# BAKI DÖVLƏT UNİVERSİTETİ

## STRATEJİ İNKİŞAF PLANI

# 2021-2030

BAKI DÖVLƏT UNİVERSİTETİ

# STRATEJİ İNKİŞAF PLANI

# 2021-2030

BAKI - 2021



BAKI DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCAN XALQININ, AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ SƏRVƏTİDİR, MİLLİ İFTİXARIDIR.

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
**HEYDƏR ƏLİYEV**

*BDU-nun* ***75 İLLİK YUBİLEYİNƏ*** *HƏSR OLUNMUŞ*
*TƏDBİRDƏKİ NİTQİNDƏN*, ***26.11.1994***



BAKI DÖVLƏT UNİVERSİTETİ 100 İL ƏRZİNDƏ AZƏRBAYCANIN HƏRTƏRƏFLİ İNKİŞAFINA BÖYÜK TÖHFƏLƏR VERMİŞDİR.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

**İLHAM ƏLİYEV**

*BDU-nun **100 İLLİK YUBİLEYİNƏ** HƏSR OLUNMUŞ TƏDBİRDƏKİ NİTQİNDƏN, **26.11.2019***

# ÖN SÖZ



**ELÇİN BABAYEV**
REKTOR

Bir əsrdən çoxdur ki, “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı olan” Bakı Dövlət Universiteti (BDU) Azərbaycan və bir sıra ölkələr üçün yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm töhfələr verir. Təbiət və humanitar-sosial elmlərin tədrisini uğurla həyata keçirən BDU ölkəmizin elm və təhsil tarixində, ixtisaslı kadr potensialının zənginləşməsində, milli şüurun formalaşmasında, eyni zamanda Azərbaycanın zəngin tarixi və mədəni irsinin tədqiqində əhəmiyyətli rol oynamışdır və bu gün də bu müqəddəs missiyanı uğurla davam etdirir.

Beynəlxalq meyarlara görə, hər bir ölkənin sosial-iqtisadi inkişafını təmin edən amillər sırasında insan kapitalının formalaşdırılması ən vacib şərtlərdən biri hesab olunur. Dünyanın inkişaf etmiş ölkələrində milli sərvətin əhəmiyyətli hissəsini məhz insan kapitalı təşkil edir və iqtisadi artımın dinamikasında intellektual əmək hər zaman üstün çəkiyə malik olur.

BDU-nun dünya şöhrətli məzunu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev inkişaf etmiş ölkələrin təcrübəsindən bəhs edərkən “onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir,” – deyirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev isə fəaliyyətində təbii resursların yaratdığı imkanların məhz insan kapitalına çevrilməsini əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirib. Bu məqam Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də öz əksini tapıb. Sənəddə Azərbaycanın rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olması növbəti onillik üzrə ölkənin sosial-iqtisadi inkişafına dair beş əsas Milli Prioritetdən biri kimi müəyyənləşdirilib.

Qeyd olunanlar ali təhsil müəssisələrinin də qarşısına mühüm vəzifələr qoyur. Bu vəzifələr sırasında “təhsil-tədqiqat-innovasiya” formatında həyata keçirilən fəaliyyət, elmi nailiyyətlərin sənayedə tətbiqi, intellectual rəqəmsal texnologiyaların inkişafı, insan kapitalının formalaşdırılmasında

birbaşa iştirak edən yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, yeni biliklərin əldə olunmasında, tətbiqində və ötürülməsində bilavasitə iştirak da vardır.

Müasir dövrdə dünyanın əksər qurum və təşkilatları köklü dəyişilmə və müasirləşmə yolunu keçməklə inkişaf edir. BDU da, öz növbəsində, islahatlarla, müasirləşməklə təkmilləşməyi qarşısına məqsəd qoymuşdur.

Universitet yeni yüzilliyinə tədrisin təşkili və təlim prosesinin idarəçiliyində innovativ yanaşmalarla, tədqiqat və elm sahələrində müasir və qabaqcıl texnologiyalarla, eləcə də beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi yer ayırmaqla başlayır. Bunlar isə təhsil, elm, innovasiyalar, beynəlmiləllik və sosiallığı özündə ehtiva edən "Universitet – 5.0" inkişaf strategiyamızın əsasını təşkil edir.

BDU-nun Strateji İnkişaf Planında uğura, rasionallığa köklənmiş məqsəd və hədəflər açıqlanır, eyni zamanda bir sıra məqamlar tənqidi aspektdən təhlil olunur. Plan BDU-nun professor-müəllim və inzibati heyəti üçün Universitetin məqsəd və hədəflərinə, habelə onların reallaşdırılması üçün idarəetmə, tənzimlənmə və nəzarət üsullarına dair daha aydın mənzərə yaradır.

Strateji İnkişaf Planı aşağıdakı mühüm prinsipləri və yanaşmaları özündə ehtiva edir:

- **İnsan kapitalı** – əməkdaş və təhsilalanların fəaliyyətinin iqtisadi dəyərini artırmağa təsir edən fərdi və kollektiv bilik və bacarıqlarının inkişaf etdirilməsi;
- **Davamlılıq** – ictimai mənafeyə xidmət edən yeni biliklərin formalaşdırılması, tətbiqi və kommersiyalaşdırılması mexanizmlərinin yaradılması;
- **Modernləşmə** – təhsil proqramlarının müasir əmək bazarının tələblərinə uyğun yenilənməsi, innovativ texnologiyaların və rəqəmsal həllərin təhsil sisteminə və infrastruktura inteqrasiyası;
- **İdarəetmə** – İdarəçilikdə sadəlik, çeviklik, şəffaflıq və məmnunluğu diqqət mərkəzində saxlamaqla onun davamlı olaraq təkmilləşdirilməsinə nail olmaq.

Strateji İnkişaf Planının həyata keçirilməsində uğurun açarı onun yerinə yetirilməsində iştirak edəcək hər kəsin öz fərqli yanaşmasını və verəcəyi töhfənin əhəmiyyətini başa düşməsinə əmin olmasıdır. Bu, bizə Planda göstərilən vəzifələri yerinə yetirməyə və onun uğur qazanmasına töhfə verməyə imkan yaradacaqdır.

Strateji İnkişaf Planının icrasında hamımıza uğurlar arzulayıram.

# STRATEJİ İNKİŞAF PLANI HAQQINDA

Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üçün Strateji İnkişaf Planı elm və təhsil üzrə əsas prioritetlər nəzərə alınmaqla hazırlanmışdır. Plan bütövlükdə Universitet, həmçinin onun struktur bölmələri üçün inkişaf prioritetlərinin çərçivəsini müəyyənləşdirir, tələbələr və akademik heyət arasında qarşılıqlı əlaqələrin dərinləşməsini və müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşma və vasitələri təqdim edir. Plan, həmçinin Universitetdə tədrisin və elmi fəaliyyətin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi, qlobal elm-təhsil məkanına daha sıx inteqrasiya, yüksəkixtisaslı insan kapitalına olan tələbatın ödənilməsi, habelə ali təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılması mexanizmlərini özündə əks etdirir. Strateji İnkişaf Planı Universitetin Himayəçilər Şurası tərəfindən təsdiq edilir, Universitetin Elmi Şurasının nəzarəti və rektorun rəhbərliyi ilə həyata keçirilir.

Strateji İnkişaf Planı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2013-cu il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"na, "2019-2023-cü illər üçün Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə, "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"na, ölkə başçısının digər müvafiq fərman və sərəncamlarına, hökumətin müvafiq qərarlarına, Təhsil Nazirliyinin normativ sənədlərinə və digər müvafiq hüquqi-normativ sənədlərə uyğun olaraq hazırlanmışdır.

Plan aşağıda qeyd olunan əsas fəaliyyət istiqamətlərini əhatə edir:

- davamlı akademik inkişaf;
- elm və innovasiyalar sahəsində gələcəyə baxış və mütəmadi olaraq yenilənən hədəflər;
- daim təkmilləşdirilən, qısa və uzunmüddətli sosiallıq və beynəlmiləlləşmə üzrə fəaliyyət.

## MİSSİYA

**Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən təhsil xidmətləri göstərmək.**

## GƏLƏCƏYƏ BAXIŞ

**Ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, elm və təhsil sahəsində beynəlxalq səviyyəli platformaya çevrilməklə regionun ən aparıcı universitetləri sırasına daxil olmaq.**

Gələcəyə Baxışın əsas tərkib hissəsini ölkənin davamlı inkişafı naminə "təhsil-tədqiqat-innovasiya" formatında fəaliyyətin qurulması, insan kapitalının inkişafında aparıcı mövqenin qorunması, ölkədaxili və beynəlxalq əməkdaşlığın yeni müstəviyə yüksəldilməsi təşkil edir.

Bu Baxışın həyata keçirilməsi Universitetin məzunlarına yerli və beynəlxalq əmək bazarında  və cəmiyyətdə öz layiqli yerlərini tutmaq, eyni zamanda Bakı Dövlət Universitetinə ölkənin ən nüfuzlu, regionun isə ən tanınmış təhsil və elm müəssisəsi olmaq imkanı yaradacaqdır.

## DƏYƏRLƏR

- **Kollegiallıq:** həmkarlara, kollektivə və bütövlükdə Universitetə hörmətlə yanaşmaq, əməkdaşları və tələbələri qarşılıqlı anlayış, səmimilik və etibarlılıq kimi dəyərlərə söykənən ortaq bir inkişaf məqsədi ətrafında cəmləşdirmək;
- **Seçim azadlığı və elmi kəşflər:** fərdi və kollektiv zəkaya, marağa, innovativliyə, ixtiraçılığa və yaradıcılığa əsaslanan bilik qazanmaq üçün seçim azadlığı və elmi kəşflərə can atma kimi meyilləri dəstəkləmək;
- **Mükəmməllik:** tədrisdə, elmdə və idarəçilikdə mükəmməlliyi yenilikçilik və yaradıcılıq meyarlarına əsaslanmaqla qətiyyət və praqmatizmlə təşviq və inkişaf etdirmək;
- **İnklüzivlik və müxtəliflik:** inklüzivlik və müxtəlifliyi təmin etmək üçün özünü cavabdeh hesab etmək;
- **Sosial məsuliyyət:** ümumi məqsəd və vəzifələrə nail olmaq üçün öz üzərinə məsuliyyət götürmək.

# “SWOT” TƏHLİLİ

## GÜCLÜ TƏRƏFLƏR

- Ölkənin zəngin təcrübəyə və ənənələrə malik, ən qədim, ən böyük və nüfuzlu təhsil və elm ocağı;
- Təbiət və humanitar-sosial elm sahələri üzrə geniş spektrli akademik proqramlar;
- Dünya miqyasında tanınmış və uğur qazanmış məzunlar və nüfuzlu fəxri doktorlar;
- Professor-müəllim heyəti arasında tanınmış və aparıcı alimlərin mövcudluğu;
- Ölkə üzrə ali təhsil müəssisələri arasında xülasələnmiş və indekslənmiş elmi nəşrlərin sayına görə lider mövqe;
- Universitetin Bakı şəhərində əlverişli coğrafi mövqedə yerləşməsi;
- Geniş və “yaşıl” universitet şəhərciyinin mövcudluğu.
- Regionlarda filial və tədris-təcrübə bazalarının mövcudluğu.

## İMKANLAR

- Elm və təhsilin davamlı inkişafı üçün dövlət tərəfindən yaradılan şərait və yeni layihələr;
- Xarici tərəfdaş universitetlərin birgə kadr hazırlığında və elmi tədqiqatların aparılmasında maraqlı olması;
- Beynəlxalq programlar və qrant müsabiqələrində iştirak imkanları;
- Xarici tərəfdaş qurumların coğrafiyasının genişliyi;
- Tələbə yataqxanası üçün geniş ərazinin mövcudluğu və “PPP” imkanları;
- Kampusun ərazisində idman və sosial əhəmiyyətli infrastrukturların partnyorların cəlb olunması yolu ilə təkmilləşdirilməsi imkanları.

## Zəif tərəflər

- Auditoriya çatışmazlığı, kafedraların və tədris otaqlarının və laboratoriyalarının maddi-texniki cəhətdən zəif təchiz olunması;
- Elmi-tədqiqat infrastrukturunun müasir tələblərə cavab verməməsi;
- Akademik heyətin tərkibində təqaüd yaşlı əməkdaşların çox olması;
- Xarici dillərdə qəbul aparılan tədris proqramlarının azlığı;
- Humanitar və sosial elm sahələrində nüfuzlu nəşrlərin az sayda olması;
- Son 5 ildə bəzi nüfuzlu beynəlxalq reytinqlərdə geriləmə;
- Əcnəbi müəllimlərin və tələbələrin nisbi azlığı;
- Elmi nəticələrin sənayedə və biznesdə tətbiqinin aşağı səviyyədə olması;
- Universitetin İT infrastrukturunun müasir tələblərə cavab verməməsi;
- Tələbə yataqxanası sayının azlığı;
- PR, marketinq və kommunikasiya strategiyasının olmaması.

## Təhdidlər

- Gənc ixtisaslı kadrların akademik və elmi sahələrdə fəalliyətə az maraq göstərməsi;
- Ölkədaxili və regional səviyyədə ali təhsil müəssisələri arasında rəqabətin daha da güclənməsi;
- İstedadlı kadrların axını;
- Uzun illər boyu formalaşmış mövcud kafedraların optimal sayda olmaması.

# 2021-2030 "UNİVERSİTET-5.0"

## STRATEJİ İNKİŞAF PLANININ İSTİQAMƏTLƏRİ

**1** TƏHSİL

**2** ELMİ TƏDQİQATLAR

**3**



İNNOVASİYALAR

4

BEYNƏLMİLƏLLƏŞMƏ

5

SOSİALLIQ

# İSTİQAMƏTLƏR VƏ HƏDƏFLƏR

| | 1. TƏHSİL | 2. ELMİ TƏDQİQATLAR |
|---|---|---|
| İNSAN KAPİTALI | **1.1.** BDU-da akademik heyətin potensialının üzə çıxarılması, o cümlədən yeni nəslin tədris və təlim proseslərinə cəlb olunması məqsədi ilə müxtəlif təşviqat metodlarının tətbiqi. | **2.1.** Səylərimizi yeni nəsil tədqiqatçıların və istedadların aşkarlanması, onların çağdaş çağırışlara cavab verən elmi-tədqiqat layihələrinə cəlb edilməsi və davamlı inkişaflarına nail olunmasına yönəltməklə elm və tədqiqat sahəsində mükəmməl nəticələr əldə edilməsinə nail olmaq. |
| DAVAMLILIQ | **1.2.** Yerli və əcnəbi abituriyentlərin seçimində hədəfə çevrilən ali təhsil müəssisəsi olmaq məqsədilə, dəyişən dünyanın çağırışlarına cavab verən və müasir əmək bazarının tələblərini ödəyən yeni ixtisasların (ixtisaslaşmaların) sayını artırmaq, mövcud ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarını dövrün tələblərinə uyğun olaraq təkmilləşdirmək. | **2.2.** BDU-da elmi bazanın dayanıqlığını təmin etmək üçün inkişaf mexanizmi olaraq fundamental araşdırmaları davam etdirməklə bərabər, nəticələri kommersiyalaşdırıla biləcək tətbiqi və sənaye yönümlü elmi-tədqiqat layihələrinə daha çox üstünlük vermək. |
| MODERNLƏŞMƏ | **1.3.** Universitetdə tədris-təlim, elmi tədqiqatlar və idarəçilik prosesinin təkmilləşdirilməsi baxımından innovativ və rəqəmsal həll formalarını tətbiq etmək, tələbə, müəllim və inzibati heyət arasında ünsiyyət və qarşılıqlı əlaqələrin gücləndirilməsi yolu ilə xidmət səviyyəsini yüksəltmək. | **2.3.** Tədqiqatçılar və tələbələr üçün ölkədə mövcud olan, eyni zamanda xarici yeni texnologiyaların, müasir laboratoriya avadanlıqlarının və zəruri elmi məlumatların istifadəsinin mümkünlüyünü və əlçatanlığını təmin etmək. |
| İDARƏETMƏ | **1.4.** Fakültənin strukturunu təkmilləşdirməklə akademik heyət üçün inkişaf imkanlarını artırmaq və bununla da səmərəli fəaliyyət göstərən və optimallaşdırılmış təşkilata çevrilmək. | **2.4.** Universitetin inkişafının əsas hərəkətverici qüvvələrindən olan elmi tədqiqatları genişləndirməklə BDU-nu "Tədqiqat Universiteti"nə çevirmək. |

İcra müddəti: Qısa müddət

# İSTİQAMƏTLƏR VƏ HƏDƏFLƏR

| 3. İNNOVASİYALAR | 4. BEYNƏLMİLƏLLƏŞMƏ | 5. SOSİALLIQ |
|---|---|---|
| **3.1.** Tədqiqat-inkişaf-innovasiyaların təşviqi, eyni zamanda tədrisin müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə sənaye və biznesdə çalışan peşəkarları Universitetə dəvət etməklə bilik və təcrübə mübadiləsinə nail olmaq. | **4.1.** Bütün fakültələrdə beynəlxalq mobillik proqramları üzrə ciddi hədəflər müəyyən etmək və BDU-nun beynəlxalq birgə layihələr və ikili diplom proqramları portfelini genişləndirmək. | **5.1.** Universiteti təbiət-texniki və humanitar-sosial sahələrdə bilik və təcrübə mübadiləsi məqsədi daşıyan yüksək səviyyəli konfranslar, seminar, forumlar və sosial tədbirlər üçün platformaya çevirmək. |
| **3.2.** İnnovativ, kommersiya əhəmiyyətli məhsul və xidmətlərin həyata keçirilməsi məqsədilə sənaye, iş dünyası, universitetlər və fərdi şəxslərin texnoloji problem və məlumatları bölüşə bilmələri və texniki resursları mübadilə etmələri üçün vahid məkan yaratmaq. | **4.2.** Regional və coğrafi prioritetləri nəzərə alaraq təbliğat və təşviqat işlərini intensivləşdirilməklə Universitetdə əcnəbi tələbələrin sayını artırmaq. | **5.2.** Fakültələrin praktikada təcrübə qazanmaları və universitetə gəlir əldə etmələri üçün BDU tərəfindən ictimaiyyətə humanitar və sosial sahələrdə əlverişli və peşəkar xidmətlərin təşkil edilməsi, həmçinin bu istiqamətdə yeni tərəfdaşlıqların qurulması. |
| **3.3.** Müasir informasiya texnologiyalarını tətbiq etməklə BDU-nun əməkdaş və tələbələrinin bu sahə üzrə bilik və bacarıqlarını artırmaqla daha səmərəli çalışması, tədqiqat aparması və təhsil almasına şərait yaratmaq. | **4.3.** Müasir beynəlxalq təcrübənin BDU-da tətbiqi məqsədilə xarici universitetlər və beynəlxalq təşkilatlarla tədris proqramlarının inkişafı və elmi-tədqiqat qrant layihələrinin icrası üzrə əməkdaşlığı əhəmiyyətli dərəcədə genişləndirmək. | **5.3.** Axtarışa, inkişafa meyilli tələbələri və yüksəkixtisaslı kadrları cəlb etmək məqsədilə BDU-nun maddi-texniki bazasının, rəqəmsal infrastrukturunun və köməkçi resurslarının müasirləşdirilməsinə əlavə investisiya qoyuluşunu təmin etmək. |
| **3.4.** Yeni innovativ məhsulların və həll variantlarının hazırlanması, işlənilməsi, tapılması və maliyyələşdirilməsinin daha çevik şəkildə aparılması üçün texnologiyaların transferi mexanizmi olaraq BDU tərəfindən Məhdud Məsuliyyətli Cəmiyyət yaratmaq. | **4.4.** Ali təhsil müəssisələrinin nüfuzlu beynəlxalq reytinqlərində (THE, QS və s.) daha yüksək nəticələr əldə etməklə regionda BDU-nun etimadını artırmaq. | **5.4.** BDU əməkdaşları və təhsilalanlar üçün etimad edilən idarəçilik, səmimi mühit, şəffaflıq və inkişafı təmin etmək. |

| Orta müddət | Uzun müddət |
|---|---|

# 1

# TƏHSİL

# TƏHSİL İSTİQAMƏTİ

Universitetin professor-müəllim heyətinin akademik göstəriciləri və tədrisin keyfiyyəti ali təhsil müəssisəsinin nüfuzunu müəyyən edən əsas amillərdən hesab olunur. Universitetdaxili əlverişli akademik mühit və müasir dövrün tələblərinə cavab verən yanaşma və tətbiqlər bu mənada xüsusi əhəmiyyət kəsb edir.

### Hədəf 1.1

**BDU-da akademik heyətin potensialının üzə çıxarılması, o cümlədən yeni nəslin tədris və təlim proseslərinə cəlb olunması məqsədi ilə müxtəlif təşviqat metodlarının tətbiqi.**

Fakültələrin inkişafına təsir edən amillər sırasında öz göstəriciləri ilə fərqlənən professor-müəllim heyətinin həvəsləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yeni təşviqat metodları BDU-nun nüfuzunun və ictimai etimadının yüksəlməsində əməyi olan əməkdaşların aşağıdakı meyarlara uyğun olaraq stimullaşdırılmasını (mükafatlandırılmasını) təmin edəcəkdir:

- tələbələr və professor-müəllim heyəti arasında keçirilmiş sorğular əsasında rəylər və onların təhlilinin nəticələri;
- nüfuzlu beynəlxalq jurnallarda dərc olunmuş elmi nəşrlərin göstəriciləri (say, istinadlar və s.);
- beynəlxalq əlaqələr üçün verilən töhfə və bu istiqamətdə fəallıq dərəcəsi;
- tədris, elm və idarəetmədə rəqəmsal tətbiqlərdən istifadədə fəallıq dərəcəsi.

**Hədəfin qiymətləndirilmə meyarı:** Elmi-pedaqoji və digər göstəriciləri ilə yeni stimullaşdırma (mükafatlandırma) proqramına uyğun gələn akademik heyətin sayı (faizlə).

### Hədəf 1.2

**Yerli və əcnəbi abituriyentlərin seçimində hədəfə çevrilən ali təhsil müəssisəsi olmaq məqsədilə, dəyişən dünyanın çağırışlarına cavab verən və müasir əmək bazarının tələblərini ödəyən yeni ixtisasların (ixtisaslaşmaların) sayını artırmaq, mövcud ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarını dövrün tələblərinə uyğun olaraq təkmilləşdirmək.**

Tədris-təlim nəticəsi təhsilalanlarda obyektiv və tənqidi yanaşmanı, sərbəst tədqiqat, sosial məsuliyyət və liderlik formalaşdırmağa imkan

verən beynəlxalq təcrübə və tələblərə əsaslanan yeni təhsil proqramları hazırlamaq və mövcud olanları təkmilləşdirmək.

**Hədəfin qiymətləndirilmə meyarı:** Məzun olma göstəricisi (faizlə).

### Hədəf 1.3

**Universitetdə tədris-təlim, elmi tədqiqatlar və idarəçilik prosesinin təkmilləşdirilməsi baxımından innovativ və rəqəmsal həll formalarını tətbiq etmək, tələbə, müəllim və inzibati heyət arasında ünsiyyət və qarşılıqlı əlaqələrin gücləndirilməsi yolu ilə xidmət səviyyəsini yüksəltmək.**

Müasir rəqəmsal texnologiyalar BDU tələbələrinin və professor-müəllim heyətinin tədris-təlim prosesində qazandığı təcrübəni zənginləşdirə bilər. Bununla da, tədrisin təşkili prosesinin əsas elementi olaraq rəqəmsal texnologiyalardan istifadəyə marağın kəskin şəkildə artmasına zəmin yaranmışdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** Aktiv istifadəçi göstəricisi (faizlə).

### Hədəf 1.4

**Fakültənin strukturunu təkmilləşdirməklə akademik heyət üçün inkişaf imkanlarını artırmaq və bununla da səmərəli fəaliyyət göstərən və optimallaşdırılmış təşkilata çevrilmək.**

2021-ci ildə BDU-da 1500 nəfərə yaxın akademik heyətin çalışdığı 16 fakültə və 120 kafedra fəaliyyət göstərir. Uzun illər boyu formalaşmış mövcud yanaşma BDU-nun strukturunda və idarəçiliyində mürəkkəbliyin yaranmasına səbəb olmuşdur.

Səmərəliliyin və işçi məmnunluğunun əhəmiyyətli dərəcədə artırılması üçün Universitetdə, xüsusilə tədris və elmi fəaliyyətin təşkili üçün mühüm əhəmiyyət kəsb edən struktur bölmələrində idarəetmənin sadələşdirilməsi BDU-nun idarəçilik sahəsində müəyyənləşdirdiyi inkişaf strategiyasının mühüm hissəsidir.

**Hədəfin qiymətləndirilmə meyarı:** Müəllim-tələbə nisbəti.

## TƏHSİL İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2021-ci ilin sonuna qədər mütəmadi olaraq BDU-da tədris-təlim prosesinin modernləşdirilməsi məqsədi ilə akademik heyətin iş vərdişlərini və işə yanaşma tərzini təkmilləşdirmək üçün yeni

stimullaşdırma (mükafatlandırma) və imtiyazlar proqramının hazırlanması, tətbiqi və bu proqramların genişləndirilməsi;

2. Hər il Azərbaycan Respublikası Təhsil Nazirliyi və xarici tərəfdaş universitetlər və qurumlarla sıx əməkdaşlıq çərçivəsində müasir çağırışlara cavab verən ən azı 2 yeni bakalavriat və magistratura proqramının hazırlanması;
3. 2021/22-ci tədris ilindən "Blackboard" elektron təhsil sisteminin bütün tədris prosesində tətbiqinə nail olunması;
4. 2022-2023-cü illərdə BDU-nun yeni elektron tələbə məlumat bazasının, insan resurslarının idarə edilməsi, sənəd dövriyyəsi, mühasibatlıq və təhlükəsizlik sistemlərinin hazırlanması və tətbiqi;
5. 2024-cü ilin sonuna qədər fakültələrin strukturunun "fakültə - kafedra" formasından "fakültə - məktəb(lər) - kafedra" formasında yenidən qurulması;
6. Kompüter elmləri, riyaziyyat, təbiət elmləri, hüquq və sosial elmlər kimi sahələrdə keyfiyyətin yüksəldilməsinə və əmək bazarının tələblərinə xüsusi diqqət ayırmaqla bakalavriat səviyyəsinə ildə 4500 nəfərdən az olmayaraq tələbə qəbulunun davamlılığına nail olunması;
7. 2025-ci ilədək magistr və doktorant hazırlığının keyfiyyətini yüksəltməklə magistratura və doktorantura pilləsinə tələbə qəbulunun ildə 1400 nəfərədək (1200 magistr və 200 doktorant) artırılmasına nail olunması.

## 2020/21-Cİ TƏDRİS İLİ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR

**24811**
TƏHSİLALAN

| | |
|---|---|
| BAKALAVRİAT | 79% |
| MAGİSTRATURA | 7% |
| SABAH QRUPLARI | 3% |
| DOKTORANTURA | 3% |
| ƏLAVƏ TƏHSİL | 1% |
| QAZAX FİLİALI | 7% |

**84%**
MƏZUN OLMA FAİZİ (BAKALAVR)

**10:1**
TƏLƏBƏ- MÜƏLLİM NİSBƏTİ

**KURSLAR ÜZRƏ ÜOMG PAYLANMA MƏNZƏRƏSİ**
1-ci: 79.3
2-ci: 73.0
3-ci: 67.8
4-ci: 66.0



**4873**
QƏBUL OLMA

**4100**
MƏZUN OLMA



# 2

# ELMİ TƏDQİQATLAR

# ELMİ TƏDQİQATLAR İSTİQAMƏTİ

BDU-nun elm-təhsil müəssisəsi kimi inkişafının ən mühüm hissəsi olan uğurlu elmi fəaliyyətin təşkili professor-müəllim heyəti və tədqiqatçıların bilik, bacarıq və tədqiqatçılıq səriştəsinə əsaslanır. Bu baxımdan, BDU-da akademik heyət və alimlərin, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən ən yüksək səviyyəli elmi mühit və tədqiqatların aparılmasına şərait yaratmaq, beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar aparmaq, faydalı təcrübə qazanmaq məqsədi ilə mövcud elmi-tədqiqat institutlarını, mərkəzlərini və laboratoriyalarını yenidən qurmaq və dövrün tələblərinə uyğun olaraq yenilərini yaratmaq, yüksək səviyyəli beynəlxalq əməkdaşlıq və intensiv təcrübə mübadiləsi aparmaq elmi tədqiqatlar istiqamətinin əsasını təşkil edir.

### Hədəf 2.1

**Səylərimizi yeni nəsil tədqiqatçıların və istedadların aşkarlanması, onların çağdaş çağırışlara cavab verən elmi-tədqiqat layihələrinə cəlb edilməsi və davamlı inkişaflarına nail olunmasına yönəltməklə elm və tədqiqat sahəsində mükəmməl nəticələr əldə edilməsinə nail olmaq.**

Bununla, BDU-da fəaliyyət göstərən elmi-tədqiqat institutları, mərkəzləri və laboratoriyalarına müasir düşüncəyə sahib novator alimləri və yeni nəsil gənc istedadları cəlb etməklə, onların beynəlxalq səviyyəli tədqiqatlar aparmaları, yüksək təcrübə əldə etmələri və davamlı inkişafları üçün imkan və şərait yaradılacaqdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** Tədqiqata cəlb olunan gənclərin (bakalavriat, magistrant və doktorantlar) say göstəricisi.

### Hədəf 2.2

**BDU-da elmi bazanın dayanıqlığını təmin etmək üçün inkişaf mexanizmi olaraq fundamental araşdırmaları davam etdirməklə bərabər, nəticələri kommersiyalaşdırıla bilinəcək tətbiqi və sənaye yönümlü elmi-tədqiqat layihələrinə daha çox üstünlük vermək.**

Fundamental və tətbiqi xarakterli elmlərin daha dərindən öyrənilməsi üçün aparılan araşdırmalar elmi-tədqiqat fəaliyyəti üçün güclü stimul olsa da, sözügedən prosesdə dayanıqlılığın təmin olunması baxımından elmi

nəticələrin kommersiyalaşdırılmasına nail olmaq vacib amillərdəndir. BDU-nun inkişafı baxımından yuxarıda qeyd olunan amillərin qarşılıqlı əlaqədə olması və bir-birini tamamlaması xüsusi əhəmiyyətə malikdir və elmi-tədqiqat strukturları da bu istiqamətdə münbit mühit yaratmağa nail olmalıdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** Tədqiqatların nəticələrinin tətbiqindən və kommersiyalaşmasından daxil olan maliyyə vəsaiti.

## Hədəf 2.3

**Tədqiqatçılar və tələbələr üçün ölkədə mövcud olan, eyni zamanda xarici yeni texnologiyaların, müasir laboratoriya avadanlıqlarının və zəruri elmi məlumatların istifadəsinin mümkünlüyünü və əlçatanlığını təmin etmək.**

Elmi fəaliyyətlə məşğul olan əməkdaşlar üçün ölkənin müxtəlif tədqiqat müəssisələrində mövcud olan texnologiyaların əlçatanlığının təmin edilməsi və ya yerli və beynəlxalq elm fondlarının qrantları əsasında avadanlıqların alınması daxili büdcəyə əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verir. Lakin, BDU-nun müasir laboratoriya avadanlıqları və texnologiyalarının alınmasına investisiya ayırması yerli və xarici elm və sənaye mərkəzləri ilə R&D (tədqiqat və inkişaf) sahəsində əməkdaşlığın daha da inkişaf etməsinə və elmi məhsuldarlığın artmasına zəmin yaradacaqdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** Hər bir elmi nəşrə düşən istinadların sayı («Web of Science» bazasında).

## Hədəf 2.4

**Universitetin inkişafının əsas hərəkətverici qüvvələrindən olan elmi tədqiqatları genişləndirməklə BDU-nu "Tədqiqat Universiteti"nə çevirmək.**

Tədqiqat Universitetində fəaliyyət “təhsil-tədqiqat-innovasiya” formatında təşkil olunur. Bu növ universitetlərdə hər bir səviyyədə elmi tədqiqat fəaliyyəti xüsusi əhəmiyyət kəsb etməlidir.

**Hədəfin qiymətləndirilmə meyarı:** Akademik heyətin bir nəfərinə düşən elmi nəşrlərin sayı (ortalama).

## ELMİ TƏDQİQATLAR İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2023-cü ilin sonunadək yeni yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin xüsusi təchiz olunmuş binasının tikilməsi və fəaliyyət üçün tam təhvil verilməsi;
2. BDU-da ən müasir elmi-tədqiqat mühitinin formalaşdırılması üçün insan kapitalının inkişafına və maddi-texniki bazanın təkmilləşdirilməsinə davamlı olaraq kapital qoyuluşunun təmin edilməsi;
3. Davamlı olaraq qeyri-dövlət sektoru tərəfindən maliyyələşdirilən tədqiqatların həcmini və dəyərini artırmaq üçün biznes, sənaye, QHT-lər və digər qurumlarla qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi;
4. BDU-nun “Tədqiqat Universiteti” statusunu əldə etməsi üçün 2023-cü ildə zəruri olan bütün akademik akkreditasiyalardan keçirilməsi.

## BDU-NUN “WEB OF SCIENCE” ÜZRƏ ÜMUMİ GÖSTƏRİCİLƏRİ

**oktyabr 2021-Cİ İL**

**3294**

MƏQALƏ SAYI




**47**

*h* - İNDEKS




ELMİ İSTİQAMƏT ÜZƏ MƏQALƏ SAYI VƏ İSTİNAD %

**5.11**

BİR ELMİ NƏŞRƏ DÜŞƏN ORTA İSTİNAD GÖSTƏRİCİSİ

**0.25**

AKADEMİK HEYƏTƏ GÖRƏ ORTA ELMİ NƏŞR SAYI GÖSTƏRİCİSİ

# 3

# İNNOVASİYALAR



# İNNOVASİYALAR İSTİQAMƏTİ

Bu gün ölkənin inkişaf siyasətini, o cümlədən biznes və sənayenin elmi nailiyyətlərə söykənən innovasiyalara artan marağını nəzərə alsaq, tədqiqat, inkişaf və innovasiya strategiyasının işlənilməsi və onun həyata keçirilməsi prosesində müxtəlif tərəfdaşlarla yaradıcı və çevik şəkildə əməkdaşlığa xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də Universitet təhsildə və elmdə dayanıqlı inkişafa və transformasiyaya nail olmaq üçün yeni nəsil alimlərdə və novatorlarda zəruri bacarıqları, nüfuz və düşüncə tərzini formalaşdıran mühit yaratmalıdır.

## Hədəf 3.1

**Tədqiqat-inkişaf-innovasiyaların təşviqi, eyni zamanda tədrisin müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə sənaye və biznesdə çalışan peşəkarları Universitetə dəvət etməklə bilik və təcrübə mübadiləsinə nail olmaq.**

Bu gün tədqiqat, inkişaf və innovasiya istiqamətində sənayeləşmə ilə paralel olaraq, biznes mühitinin tələblərinə, qabaqcıl standartlara uyğun imkan və bacarıqların olması Universitet üçün ciddi əhəmiyyət kəsb edən amillərdəndir. Hazırda bu istiqamətdə çatışmazlıqların olduğunu nəzərə alsaq, innovasiyaların konktret sahəsinə aid kənar peşəkar mütəxəssislərin və ekspertlərin bu prosesə cəlb olunması təhsil, tədqiqat və innovasiyaların inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Peşəkar mütəxəssislər fərdi və ya qrup şəklində qeyd olunan istiqamətin inkişafında iştirak etməli, Universitet tədqiqatçılarının tətbiq və nəşr edilə bilən, eyni zamanda ticarət baxımından səmərəli olan tədqiqat layihələri üzərində işləmələrinə köməklik göstərməlidirlər.

**Hədəfin qiymətləndirmə meyarı:** Tədqiqat və inkişaf (R&D) fəaliyyətinə sənaye və biznes mühitindən cəlb olunan mütəxəssislərin sayı.

## Hədəf 3.2

**İnnovativ, kommersiya əhəmiyyətli məhsul və xidmətlərin həyata keçirilməsi məqsədilə sənaye, iş dünyası, universitetlər və fərdi şəxslərin texnoloji problem və məlumatları bölüşə bilmələri və texniki resursları mübadilə etmələri üçün vahid məkan yaratmaq.**

Mövcud sürətli texnoloji inkişaf, innovativ yanaşma və iqtisadiyyatda tələb olunan bilik və bacarıqların inkişaf etdirilməsi cəmiyyətdə iş adamları ilə

gənc istedadlar – tələbə, tədqiqatçı, alim və peşəkar mütəxəssislər arasında kommersiya imkanlarının sıx əlaqələndirilməsini tələb edir. Bununla, yaradıcı və bacarıqlı zəka sahibləri sahibkarlıq fəaliyyəti və ya startaplarla məşğul olmağa başlamadan öncə öz bilik və bacarıqlarını iş dünyasının fərqli sahələrinə təsir imkanı olan real kommersiya əhəmiyyətli layihələrdə yoxlaya bilərlər.

**Hədəfin qiymətləndirilmə meyarı:** Tədqiqat və inkişaf (R&D) fəaliyyətini maliyyələşdirən tərəflərin sayı.

### Hədəf 3.3

**Müasir informasiya texnologiyalarını tətbiq etməklə BDU-nun əməkdaş və tələbələrinin bu sahə üzrə bilik və bacarıqlarını artırmaqla daha səmərəli çalışması, tədqiqat aparması və təhsil almasına şərait yaratmaq.**

Rəqəmsal texnologiyalar və informasiya savadlılığı müəllimlərin, təhsil alanların və tədqiqatçıların gündəlik iş həyatında vacib elementə çevrilmişdir. Bu isə yeni təlim metodlarını tətbiq etmək və son elmi-texnoloji nailiyyətlərdən faydalanmaqla müəllimlərin öz düşüncə və yanaşma tərzlərini dəyişməsi deməkdir. Burada ən önəmli məqamlardan biri akademik heyətin gündəlik fəaliyyətində rəqəmsal texnologiyalardan peşəkarcasına istifadə etməsidir.

**Hədəfin qiymətləndirilmə meyarı:** Sorğu nəticələri.

### Hədəf 3.4

**Yeni innovativ məhsulların və həll variantlarının hazırlanması, işlənilməsi, tapılması və maliyyələşdirilməsinin daha çevik şəkildə aparılması üçün texnologiyaların transferi mexanizmi olaraq BDU tərəfindən Məhdud Məsuliyyətli Cəmiyyət yaratmaq.**

Universitetdə tədqiqat, inkişaf və innovasiyaların mülkiyyət formasından asılı olmayaraq sənaye şirkətləri tərəfindən maliyyələşdirilməsinə nail olmaq üçün uyğun biznes portfelinin yaradılması vacib elementlərdəndir. Vahid universitet-sənaye-biznes tərəfdaşlığı portfelinin mövcudluğu bu istiqamətdə etibarlılığın möhkəmlənməsinə töhfə verə bilər.

**Hədəfin qiymətləndirilmə meyarı:** İllik gəlirin əməkdaş sayına düşən nisbəti.

## İNNOVASİYALAR İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. Sənaye sahələri üzrə mütəxəssislərin və tədqiqatçıların aşağıda qeyd olunan sahələr üzrə mövcud problemlərin yeni, münasib və innovativ həll variantlarının birlikdə işlənilib hazırlanması üçün vahid bir məkanda davamlı əməkdaşlığa dəvət olunması:
    - rəqəmsal həllər;
    - enerji problemləri;
    - kimya sənayesi;
    - kənd təsərrüfatı;
    - biotexnologiyalar;
    - aerokosmik sənaye.
2. 2025-ci ilədək Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin yenilikçi ideyaların sənaye və biznes üçün kommersiya əhəmiyyətli praktik tətbiqini təmin edən və ölkədə aparıcı və nüfuzlu mərkəzlərdən birinə çevrilməsi;
3. 2022-ci ildə Universitetə məxsus kommersiya müəssisəsinin qeydiyyata alınmasının təmin edilməsi, 2025-ci ilədək daha proqressiv nəticə əldə etmək üçün bu qurumun yeni innovativ məhsulların və həll variantlarının hazırlanması, işlənilməsi, tapılması və maliyyələşdirilməsində texnologiyanın transferi mexanizminə çevrilməsi.

## 2021-Cİ İL ÜZRƏ LAYİHƏLƏR

**5 İRİ ŞİRKƏT**
İLƏ KOMMERSİYA ƏSASLI
**7 LAYİHƏ**

**250 NƏFƏRLİK**
TƏDQİQAT, İNKİŞAF VƏ İNNOVASİYALAR ÜZRƏ
**MÜKƏMMƏLLİK MƏRKƏZİ**

**KOBİA** İLƏ
BİRGƏ İNKUBASİYA MƏRKƏZİNİN YARADILMASI

**BUİLD**
**MMC**-nin
TƏSİS OLUNMASI

**Blackboard**
e-TƏTBİQİ ÜZƏRİNDƏN TƏDRİS PROSESİNİN TƏŞKİLİ



# 4

# BEYNƏLMİLƏLLƏŞMƏ

# BEYNƏLMİLƏLLƏŞMƏ İSTİQAMƏTİ

Yaşadığımız qloballaşma dövründə beynəlmiləlləşmə universitetlərin mühüm strateji hədəflərindən hesab olunur. BDU özünün qlobal əhatə dairəsini genişləndirmək, təhsilalanların beynəlxalq imkanlardan faydalanma perspektivlərini artırmaq və Universitet kollektivinin mədəni müxtəlifliyini və dünyaya inteqrasiyasını təşviq etmək istiqamətində fəaliyyət göstərir.

## Hədəf 4.1

**Bütün fakültələrdə beynəlxalq mobillik proqramları üzrə ciddi hədəflər müəyyən etmək və BDU-nun beynəlxalq birgə layihələr və ikili diplom proqramları portfelini genişləndirmək.**

Qlobal miqyasda baş verən yeniliklər nəzərə alınmaqla Universitet beynəlxalq standartlara uyğun sürətli və çevik fəaliyyət göstərməyi bacarmalıdır. Bunun üçün tədris, təlim, elm və tədqiqat kimi sahələr üzrə beynəlxalq təcrübə mübadiləsinə xüsusi diqqət yetirməklə beynəlxalq imkanları müəyyənləşdirmək və onlardan məqsədyönlü şəkildə faydalanmaq; beynəlxalq fəaliyyət istiqamətləri üzrə effektiv daxili və xarici əlaqələr qurmaq; Universitetin beynəlxalq əlaqələrini daima inkişaf etdirmək və genişləndirmək; xüsusilə, universitetlərarası mübadilə, o cümlədən beynəlxalq mübadilə proqramları (Erasmus + KA 107, Mövlane və s.), ikili dərəcə proqramları və birgə elmi tədqiqatların aparılması istiqamətində fəaliyyətin genişləndirilməsinə diqqət yetirmək tələb olunur.

**Hədəfin qiymətləndirilmə meyarı:** Beynəlxalq proqramlara cəlb olunan tələbə və müəllim göstəricisi (say).

## Hədəf 4.2

**Regional və coğrafi prioritetləri nəzərə alaraq təbliğat və təşviqat işlərini intensivləşdirməklə Universitetdə əcnəbi tələbələrin sayını artırmaq.**

Hazırda dünya universitetləri arasında əcnəbi tələbələrin cəlb edilməsi istiqamətində güclü təşviqat siyasəti və rəqabət mövcuddur. Ona görə də BDU əcnəbi vətəndaşların cəlb olunması istiqamətində ölkələrinə görə xüsusi yanaşmalara diqqət yetirməlidir – tədris xidmətlərini beynəlxalq tələblərə uyğunlaşdırmalı və prioritet regionlarda (hətta şəhərlərdə) məqsədyönümlü təbliğatı gücləndirməlidir.

Bu, Türkiyə, Rusiya, Gürcüstan və Çin kimi ölkələrdən olan əcnəbi tələbələrin cəlb olunması üçün daha vacib amildir.

Universitetin məqsədi dövrün tələblərinə cavab verən müasir kampusa və rəqəmsal dünyanın standartlarına uyğun infrastruktura sahib olmaqdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** Əcnəbi tələbələrin sayı.

### Hədəf 4.3

**Müasir beynəlxalq təcrübənin BDU-da tətbiqi məqsədilə xarici universitetlər və beynəlxalq təşkilatlarla tədris proqramlarının inkişafı və elmi-tədqiqat qrant layihələrinin icrası üzrə əməkdaşlığı əhəmiyyətli dərəcədə genişləndirmək.**

Xarici universitetlər və beynəlxalq təşkilatlarla təhsil və elm sahəsində mövcud əlaqələrin möhkəmləndirilməsinə və yeni faydalı tərəfdaşlıq əlaqələrinin qurulmasına xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

**Hədəfin qiymətləndirilmə meyarı:** İmzalanmış əməkdaşlıq müqavilələrinin effektivliyi.

### Hədəf 4.4

**Ali təhsil müəssisələrinin nüfuzlu beynəlxalq reytinqlərində (THE, QS və s.) daha yüksək nəticələr əldə etməklə regionda BDU-nun etimadını artırmaq.**

BDU-nun fəaliyyətini yerli, regional və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi və dünya universitetlərinin reytinq sistemlərində daha məqbul nəticələrin əldə olunması istiqamətində aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmək və onların inkişaf meyarlarına uyğunlaşdırmaq.

**Hədəfin qiymətləndirilmə meyarı:** Beynəlxalq reytinqlər üzrə əldə olunan nəticə.

## BEYNƏLMİLƏLLƏŞMƏ İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2026-cı ilə kimi BDU-nun əməkdaşları və tələbələrinin akademik mübadilə proqramlarında iştirak sayının bir neçə dəfə artırılması;
2. Dünyanın nüfuzlu universitetləri ilə ikili diplom və ortaq layihələr istiqamətində əməkdaşlığın inkişaf etdirilməsi (hər il minimum 2-3 proqram);

3. BDU-nun beynəlxalq prioritetlərinə töhfə və dəstək vermələri məqsədi ilə dünya miqyasında Universitetin məzunları ilə əlaqələrin gücləndirilməsi, 2023-cü ilin sonunadək məzunların assosiasiyasının yaradılması;
4. 2030-cu ilə kimi ali təhsil müəssisələrinin THE və QS kimi reytinqlərinin müəyyən nominasiyaları üzrə BDU-nun 250-500-cü yerlərə yüksəldilməsi.

## 2021/2022-Cİ TƏDRİS İLİ ÜZRƏ GÖSTƏRİCİLƏR

**7 İKİLİ DİPLOM**
BEYNƏLXALQ PROQRAMI

**400+**
XARİCİ TƏLƏBƏ




**90+**
TƏRƏFDAŞ UNİVERSİTET

QS 1001+

THE

**1201+**
AZƏRBAYCANDA "**THE World University Ratings**" 2022-ci İL SİYAHISINA DÜŞƏN İLK UNİVERSİTET



# 5

# SOSİALLIQ

# SOSİALLIQ İSTİQAMƏTİ

Strateji İnkişaf Planının icrası zamanı Universitet etik normaları, şəffaflığı, dayanıqlılığı və ictimai faydalılığı əsas götürəcəkdir. Sosial məsuliyyət, ictimaiyyətlə sıx əlaqə və dayanıqlılıq BDU-nun idarəçilik siyasətinə və təcrübəsinə, həmçinin cəmiyyətə və ətraf mühitin mühafizəsinə öz töhfəsini verəcəkdir.

### Hədəf 5.1

**Universiteti təbiət-texniki və humanitar-sosial elm sahələrində bilik və təcrübə mübadiləsi məqsədi daşıyan yüksək səviyyəli konfrans, seminar, forumlar və sosial tədbirlər üçün platformaya çevirmək.**

Universitet hər zaman peşəkar cəmiyyət və birlikləri inkişafa dəstək olmaları üçün müvafiq mövzulara dair vorkşoplar, konfranslar, simpoziumlar və seminarlara dəvət etmək və onlarla əməkdaşlıq etmək imkanlarını davamlı olaraq axtarmalıdır.

**Hədəfin qiymətləndirilmə meyarı:** İki və daha çox tərəfdaşların iştirakı ilə keçirilən tədbirlərin sayı

### Hədəf 5.2

**Fakültələrin praktikada təcrübə qazanmaları və universitetə gəlir əldə etmələri üçün BDU tərəfindən ictimaiyyətə humanitar və sosial sahələrdə əlverişli və peşəkar xidmətlərin təşkil edilməsi, həmçinin bu istiqamətdə yeni tərəfdaşlıqların qurulması.**

Universitet öz bilik kapitalını və kampusunu, maddi-texniki bazasını ictimaiyyətin diqqətini cəlb edəcək səviyyədə inkişaf etdirməli və öz fəaliyyət istiqamətləri çərçivəsində fiziki və hüquqi şəxslərə müxtəlif növ xidmətlər (hüquqi məsləhət, psixoloji yardım, dil kursları, yaradıcılıq kursları, idman növləri üzrə məşqlər və s.) göstərməlidir.

**Hədəfin qiymətləndirilmə meyarı:** Xidmət göstərilən kənar şəxslərin və təşkilatların sayı və əldə edilən gəlir.

### Hədəf 5.3

**Axtarışa, inkişafa meyilli tələbələri və yüksəkixtisaslı kadrları cəlb etmək məqsədilə BDU-nun maddi-texniki bazasının, rəqəmsal infrastrukturunun və köməkçi resurslarının müasirləşdirilməsinə əlavə investisiya qoyuluşunu təmin etmək.**

Belə bir mühit BDU əməkdaşlarının və təhsilalanların həm fərdi, həm də kollektiv olaraq inkişafına, onların hər birinin uğur qazanmasına təkan verəcəkdir.

**Hədəfin qiymətləndirilmə meyarı:** Müasirləşdirilmiş auditoriya və laboratoriyaların nisbəti.

### Hədəf 5.4

**BDU əməkdaşları və təhsilalanlar üçün etimad edilən idarəçilik, səmimi mühit, şəffaflıq və inkişafı təmin etmək.**

Universitet rəhbərliyi tərəfindən hər kəsə bərabər imkanlar aşılayan, komandada işləmə və liderlik bacarığını inkişaf etdirən, prioritet sahələr üzrə tədqiqatlar aparmaq azadlığını özündə ehtiva edən, mükəmməl və inklüziv bir mühit yaratmaq.

Bununla da, BDU əməkdaşlarının və təhsilalanların hüquq və azadlıqlarını təmin edən, şərəf və ləyaqətini qoruyan, sosial məsuliyyəti təşviq edən özünəməxsus şərait və sosial mədəniyyət formalaşdırmaq.

**Hədəfin qiymətləndirilmə meyarı:** Təhsilalanlar və əməkdaşlar arasında illik sorğunun nəticələri.

## SOSİALLIQ İSTİQAMƏTİ ÜZRƏ ƏSAS PRİORİTETLƏR

1. 2028-ci ilə kimi BDU-nun infrastrukturunun tam olaraq müasirləşdirilməsi və rəqəmsallaşdırılması;
2. 2025-ci ilə kimi fiziki və hüquqi şəxslərə ən azı 5 istiqamət üzrə xidmət göstərilməsi;
3. 2026-cı ilə kimi 2000-3000 yerlik Universitet yataqxana kompleksinin tikilməsi;
4. BDU əməkdaşları və tələbələri arasında qarşılıqlı etimad, tolerantlıq, hörmət, xeyirxahlıq və nəzakət mədəniyyətinin təşviqi;
5. BDU əməkdaşlarının geniş miqyaslı humanitar-sosial proqramlar və layihələrdə daha fəal iştirak etmələri üçün imkanların yaradılması;
6. Ortaq maraq və prinsipləri nəzərə almaqla Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti vasitəsilə tələbələr arasında əlaqələrin gücləndirilməsi, kollektiv fəaliyyətin genişləndirilməsi.

## 2020/2021-Cİ TƏDRİS İLİ ÜZRƏ GÖSTƏRİCİLƏR

**220 NƏFƏRLİK**
YENİDƏN QURULMUŞ
**TƏLƏBƏ EVİ**

**500+**
KÖNÜLLÜ

PSİXOLOJİ YARDIM SEKTORU
**450+ NƏFƏRƏ** XİDMƏT GÖSTƏRİLİB

YENİDƏN QURULMUŞ RƏQƏMSAL
**NƏŞRİYYAT**

MƏDƏNİYYƏT-YARADICILIQ
MƏRKƏZİNDƏ **20+ TƏDBİR**

HÜQUQ KLİNİKASI
**250+ NƏFƏRƏ** XİDMƏT GÖSTƏRİLİB

# QEYD

# QEYD

# BAKI DÖVLƏT UNİVERSİTETİ

## BİR ƏSR ƏVVƏL TƏŞƏKKÜL TAPMIŞ TƏHSİL VƏ ELM OCAĞININ GƏLƏCƏYİ

STRATEJİ İNKİŞAF PLANI

**2021-2030**



Bakı - 2021